TURKPA

PARLIAMENTARY ASSEMBLY OF TURKIC-SPEAKING COUNTRIES

**BEYNƏLXALQ ƏLAQƏLƏR KOMİSSİYASI**

# TÜRKPA-nın BEYNƏLXALQ ƏMƏKDAŞLIĞININ ƏSAS ASPEKTLƏRİ VƏ PERSPEKTİVLƏRİNƏ DAİR

# HESABAT MƏRUZƏSİ

## I. GİRİŞ

1. Məruzə Assambleyamızın inkişafında gedən cari prosesləri daha ardıcıl, uyğunlaşdırılmış şəkildə əldə etmək və yeni çağırışların effektiv cavablandırılmasına nail olmaq üçün TÜRKPA-nın bundan sonrakı beynəlxalq əməkdaşlığının artırılmasını vurğulayır. Məruzədə həm TÜRKPA-nın yarandığı gündən etibarən beynəlxalq əməkdaşlıq sahəsində görülən işlər barədə əsas məlumat, həm də TÜRKPA-nın beynəlxalq əlaqələrinin genişlənməsinə yönəldilən mövcud imkanların və resursların səmərəli istifadəsinin gələcək zərurət aspektləri əks olunub.

2. TÜRKPA beynəlxalq arenada öz identikliyin formalaşmasına xüsusi önəm verməkdədir. Üzv parlamentləri başçılarının qeyd etdiyi kimi, TÜRKPA-nın ana məqsədləri parlament diplomatiyasının gələcək tərəqqisinə töhfə vermək, dünyada və regionda mövcud olan beynəlxalq təşkilatlar və parlamentləriylə əlaqələrin qurulması və inkişaf etdirməsidir.

3. Qısa müddət ərzində TÜRKPA bir sıra beynəlxalq təşkilatlarla, həmçinin parlamentlərarası institutlarla, münasibətlər qurmuşdur. Bu prosesdə TÜRKPA Katibliyi aktiv iştirak etmişdir. TÜRKPA-nın Avropa və beynəlxalq parlament qurumları ilə qarşılıqlı fəaliyyəti ilk növbədə parlament diplomatiyasının və parlamentlərarası dialoqun möhkəmləndirilməsinə yönəldilib.

4. TÜRKPA-nın 2-ci plenar sessiyasında qəbul olunmuş Astana Bəyannaməsi təsdiq edir ki, “Parlament Assambleyası, qısa müddətli fəaliyyəti ərzində, Beynəlxalq Parlamentlər Birliyi və İslam Konfransı Təşkilatının Parlamentlər Birliyində müşahidəçi statusuna malik tam hüquqlu parlamentlərarası təşkilata çevrilmişdir”.

## II. BEYNƏLXALQ TƏŞKİLATLARLA QURULAN MÜNASİBƏTLƏR

5. TÜRKPA, beynəlxalq əməkdaşlıq çərçivəsində, münasibətlərin gücləndirilməsinə və sıx qarşılıqlı əlaqələrə istiqamətləndirilmiş beynəlxalq təşkilatlarla fəaliyyətini davam etdirir. Bunların arasında BMT Baş Assambleyası, ATƏT və NATO Parlament Assambleyaları, Avropa Parlamenti, Asiya Ölkələrinin Parlament Assambleyası, MDB Parlamentlərarası Assambleyası, İslam Əməkdaşlığı Təşkilatının Parlamentlər Birliyi, Beynəlxalq Parlamentlər Birliyi, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyası, Asyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Konfransı (CİCA), Şimali Avropa ölkələrin Şurası, Cənubi-Şərq Avropa Əməkdaşlıq Prosesinin Parlament Assosiasiyası, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (TÜRKKON) və TÜRKSOY kimi təşkilatlardır. Qeyd etmək lazımdır ki, TÜRKPA yuxarıda göstərilən təşkilatlarda muşahidəçi və qonaq qismində təmsil olunur.

6. TÜRKPA Parlamentlərin Baş Katibləri Assosiasiyasına üzv, 155 ölkələri birləşdirən dünyanın ən boyük beynəlxalq parlament təşkilatı olan Beynəlxalq Parlamentlər Birliyi və İslam Əməkdaşlığı Təşkilatının Parlamentlər Birliyinə müşahidəçi kimi qəbul olunmuşdur. ATƏT-in Parlament Assambleyasında TÜRKPA-nı təmsil edən millət vəkilləri qrupunun məhsuldar fəaliyyəti nəticəsində TÜRKPA-ya həmin təşkilatda qonaq statusu verilmişdi.

7. TÜRKPA Avropa Parlamenti ilə sıx əməkdaşlıq edir. Bununla belə, TÜRKPA və Parlament Diplomatiyasının İnkişafı Ofisi (OPPD) arasında olan qarşılıqlı fəaliyyət Avropa Parlamenti və Avropa Birliyinin digər qurumları ilə uzun müddətli əlaqələri həyata keçirməyinə əlverişli imkanlar verir. OPPD Avropa Parlamentinin Xarici Siyasət üzrə Baş İdarəsinin nəzdində fəaliyyət göstərir və regional parlamentlərarası təşkilatların yaradılması və inkişafında, onların parlamentlərarası qanunvericilik əməkdaşlıq sahəsində potensialın gücləndirilməsi və qabaqçıl təcrübə bölüşdürülməsi məqsədi ilə, köməklik göstərir. OPPD ilə əməkdaşlığın ilkin mərhələsində 2010-cu ilin 8-13 noyabr tarixlərində Brüssel şəhərində təcrübə mübadiləsi programında iştirak etmək üçün TÜRKPA Katibliyin nümayəndələri Avropa parlamenti tərəfindən dəvət edilmişdilər. Səfər çərçivəsində Avropa Parlamentinin fəaliyyətiylə yaxından tanış olmaq üçün Katibliyin əməkdaşlarına xüsusi program təqdim olunmuşdur. TÜRKPA-nın Avropa Birliyi institutları ilə işbirliyin növbəti mərhələsi olaraq, OPPD TÜRKPA Katibliyi və üzv parlamentlərinin əməkdaşları üçün individual tədqiqat programı və tanışlıq səfərləri 2011-ci ilin sonunda və gələn ilin əvvəlində təşkil etməyə planlaşdırır.

8. Bundan əlavə, TÜRKPA Katibliyi ATƏT Parlament Assambleyası və Şimali Avropa ölkələrin Şurası təşkilatı ilə təcrübə mübadiləsi programında iştirak etmişdir. 2010-cu il 14-16 noyabr tarixlərində TÜRKPA-nın əməkdaşları hər iki təşkilatların Kopengagen şəhərində yerləşdirilmiş katibliklərinə səfər etmişdilər.

9. Qara Dəniz İqtisadi Əməkdaşlıq Parlament Assambleyasının 35-ci plenar sessiyasında, ATƏT Parlament Assambleyasının təşkil etdiyi Trans-Atlantik Forumda, Beynəlxalq Parlamentlər Birlyinin 123-cü və 124-cü sessiyalarında, CİCA-nın 3-cü sammitində, Cənub-Şərq Avropa parlamentlərinin 8-ci Beynəlxalq Əməkdaşlıq Konfransında, İslam Əməkdaşlığı Təşkilatının təşkil etdiyi "Cənub-Şərq Avropada Sabitlik və Əməkdaşlıq" mövzusunda beynəlxalq konfransda, Dialoq Avrasiya Platforması Təşkilatı tərəfindən "Nəsillər və Mədəniyyətlərarası

Dialoqu" mövzusuna həsr olunmuş konfransda, 3-cü Astana İqtisadi Forumunda, Parlamentlərin Baş Katibləri Assosiasiyasının son üç sessiyalarında, ATƏT Parlament Assambleyası, MDB Parlamentlərarası Assambleyası və İslam Əməkdaşlığı Təşkilatının Parlamentlər Birliyinin plenar sessiyalarında, habelə Qazaxıstan Parlmenti tərəfindən təşkil edilmiş "ATƏT və MDB: yeni fürsətlər və perpesktivlər" adlı beynəlxalq konfransda, TÜRKPA nümayəndə heyətlərinin iştirakı parlamentlərarası münasibətlərinin yaradılması və formalaşmasına müsbət təsirin göstəricisidir.

10. TÜRKPA-nın fəaliyyəti ilk növbədə Birləşmiş Millətlər Təşkilatının mənəvi prinsiplər və dəyərlərinə cavab verməkdədir. Türkdilli ölkələrinin rəhbərləri qəbul etmiş bəyannamələrində BMT-nin Nizamnaməsində təsbit olunan prinsiplərinə bağlılığını dəfələrlə vurğulamışdılar. Nəticədə, TÜRKPA-nın beynəlxalq əməkdaşlığı BMT-nin legitim və ali rolunun tanınmasına əsaslanır. Bununla belə, TÜRKPA BMT Baş Assambleyasında müşahidəçi statusu almaq üçün müraciət etmişdir. TÜRKPA üzv ölkələrin BMT-də daimi nümayəndəliklərinin səyi nəticəsində BMT tərəfindən müraciət üzrə müsbət rəy verilmişdir və həmin məsələ BMT Baş Assambleyasının 66-ci sessiyasının gündəliyinə daxil olmuşdur.

11. Beynəlxalq təşkilatlarla əməkdaşlıq kontekstində TÜRKPA üç beynəlxalq konfrans təşkil etmişdir. Türkiyə Böyük Millət Məclisinin 90-illik yubileyi münasibətiylə və Azərbaycan-Türkiyə, Türkiyə-Qazaxıstan parlamentlərarası əlaqələrinin intensivləşdirilməsi məqsədiylə Bakıda 2010-cu il 24 may tarixində "Parlament diplomatiyası – TÜRKPA" adlı konfrans keçirilmişdir. 2010-cu il 24 sentyabr tarixində isə Bakı Dövlət Universitetində "Dövlətlərarası əlaqələrin inkişaf prosesində parlament diplomatiyası" mövzusunda konfrans keçirilmişdir. 2011-ci il 3-4 oktyabr tarixlərində TÜRKPA və Türkiyə hökümətinə bağlı TİKA təşkilatı ilə birgə Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan və Özbəkistanının müstəqilliklərinin 20-ci ildönümünə həsr olunmuş "XXİ əsrdə Qadın Siyasətçilərinin artan rolu" mövzusunda beynəlxalq konfrans keçirilmişdir. Konfransın iştirakçıları TÜRKPA üzv dövlətlərin başçılarına müraciət qəbul etmişdilər.

12. TÜRKPA və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası arasında Türkdilli dövlətlərin siyasi, iqtisadi və mədəni əlaqələrinin möhkəmlənməsinə dayanan ümumi ana məqsədlərinə uyğun işbirliyi inkişaf edir. TÜRKPA nümayəndə heyəti 2010-cu il 15-16 sentyabr tarixlərində İstanbulda keçirilən Türkdilli ölkələrin Dövlət Başçılarının X Zirvə Görüşündə iştirak etmişdir. Toplantıda TÜRKPA-nın Baş Katibi dövlət başçılarına qurumun fəaliyyəti ilə bağlı ətraflı məlumat vermişdir. Dövlət başçıları TÜRKPA-nın fəaliyyətini yüksək qiymətləndirmiş və bunu toplantıda qəbul edilmiş İstanbul Bəyannaməsinin 18-ci maddəsində əks etdirmişdilər. TÜRKPA nümayəndə heyəti 2011-ci il 20-21 oktyabr tarixində Almatı şəhərində keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının İ Zirvə Görüşündə iştirak etmişdir.

13. TÜRKPA digər Türkdilli dövlətləri ilə sıx qarşılıqlı əlaqələrin qurulmasında xüsusən maraqlıdır. Beləliklə, Türkmənistan və Özbəkistan parlamentləri ilə təmasların qurulması prosesi davam edir. Yaxın perspektivdə Assambleyamızın iki ölkə ilə gələcək əməkdaşlıq mexanizmlərinə dair fikir mübadiləsi aparmaq üçün TÜRKPA Katibliyi Türkmənistan və Özbəkistan parlamentlərinə tanışlıq səfərləri təşkil etməyə planlaşdırır.

14. TÜRKPA-nın təsis etdiyi seçkilər üzrə müşahidə mandatı Assambleyanın üzv ölkələrdə dövlət qurumları ilə möhkəm əməkdaşlığına və onların milli seçki prosesinin hərtərəfli

monitorinq etmək səylərinə bir töhfə vermişdir. Azərbaycan, Qırğızıstan və Türkiyədə parlament seçkiləri, həmçinin Qazaxıstanda və Qırğızıstanda keçirilmiş növbədənkənar prezident seçkiləri TÜRKPA beynəlxalq müşahidəçilər missiyası tərəfindən izlənilmişdir. Bu prosesi global səviyyədə inkişaf etdirmək üçün Assambleya Astanada keçirilən 2-ci plenar sessiyasında TÜRKPA beynəlxalq müşahidəçilər missiyasının digər beynəlxalq təşkilatlarla birlikdə Assambleyaya üzv olmayan ölkələrdə seçkiləri müşahidə etmək fəaliyyətinə dair müddəanı TÜRKPA reqlamentinə əlavə etmişdir.

15. TÜRKPA Katibliyi Azərbaycan Respublikasında fəaliyyət göstərən diplomatik missiyalar və beynəlxalq təşkilatlarla əməkdaşlıq səylərinə öz töhfəsini verməkdədir. Buna əsasən, üzv ölkələrin xarici işlər nazirləri, bir sıra Avropa Birliyi ölkələrinin səfirləri, BMT və BMT orqanlarının yüksək vəzifəli nümayəndələri, Avropa Parlamenti və Avropa Şurasının təmsilçiləri, habelə parlamentlərarası dostluq qruplarının rəhbərləri ilə görüşlər keçirilmişdir. Katiblik həmçinin Azərbaycan Respublikasında üzv ölkələrin fəaliyyət göstərən diplomatik nümayəndələriylə mütəmadi olaraq məsləhətləşmələr aparır.

16. Yaxın gələcəkdə bir sıra tədbirlərin həyata keçirilməsi planlaşdırılır. Bunların arasında Dünya Türk Parlament Təmsilcilərin 1-ci Qurultayi, "Ölkələrarası əməkdaşlığın inkişafında gənc liderlərinin rolu" və "TÜRKPA: parlamentlərarası əməkdaşlığın yeni mərhələsi" mövzularında beynəlxalq konfransların təşkil edilməsi, üzv ölkələrin konstitusiyalarının TÜRKPA-nın beş rəsmi dildə nəşr edilməsi, həmçinin üzv ölkələrin millət vəkilləri üçün mübadilə programların, regional və qonşu dövlətlərin parlamentləri ilə əlaqələrin inkişafına dair tədbirlərin və Türkdilli ölkələrin arasında münasibətlərin intensivləşməsinə yonəlmiş layihələrin gerçəklişdirilməsidir.

## III. GƏLƏCƏK PERSPEKTİVLƏR

17. Parlament diplomatiyası ənənəvi diplomatiyanı tamamlayan bir amil kimi hesab olunur. Dünyada sülhün, demokratiya və iqtisadi inkişafın bərqərar olmasında parlament nümayəndələrin beynəlxalq əməkdaşlıqda iştirakı həlledicidir. Regional və parlament diplomatiyasının önəmliyi dəfələrcə BMT başda olmaqla aparıcı beynəlxalq təşkilatlar tərəfindən təsdiqlənmişdir, və həmin aspekt 2000-ci il 8 sentyabr tarixində qəbul olunmuş BMT-nin Minillik Bəyannaməsində öz əksini tapmışdır. Parlament diplomatiyasının mexanizmləri bir çox hallarda ənənəvi diplomatik vasitələrlə çətin əldə olunan nəticələrə uğurla nail olur. TÜRKPA tamamilə fərqindədir ki, parlamenterlər arasında daimi təmaslar üzv ölkələrin siyasi elitalar arasında qarşılıqlı anlaşmanın irəlləməsinə və təcrübə mübadiləsinə töhfə verməkdədir.

18. TÜRKPA öz üzv ölkələrin əməkdaşlığına aid olan prioritet məsələlərinin gündəmdə saxlanmasıyla bağlı məsuliyyətini təsdiq etməkdədir. Eyni zamanda, TÜRKPA inanır ki, bu əməkdaşlıq sadəcə Türk dünyasının hüdudlarıyla məhdudlaşmamalıdır. Regionumuzun xüsusiyyətlərini nəzərə alaraq, Türkdilli ölkələri parlament ölçüsünün beynəlxalq təşkilatlarla geniş əməkdaşlığı dünya ictimaiyyəti tərəfindən öz spesifik vəzifələrin dərk edilməsində mühüm əsaslar yarada bilər.

19. TÜRKPA qlobal dialoqun ümumi parlamentlərarası platformanın möhkəmlənməsinə xüsusi önəm verir. Bunun nəticəsi olaraq, Assambleyamız ən böyük beynəlxalq parlament institutları olan Beynəlxalq Parlamentlər Birliyi və İslam Əməkdaşlığı Təşkilatının Parlamentlər Birliyində müşahidəçi statusuna malik oldu. TÜRKPA Beynəlxalq Parlamentlər Birliyinin aktual

məsələlərinin nizamlanmasına yönəlmiş təcrübəsinin öyrənməsində hərtərəfli olaraq maraqlıdır. TÜRKPA və İslam Əməkdaşlığı Təşkilatının Parlamentlər Birliyi arasında müşahidəçi statusun qarşılıqlı əsasda verilməsiylə gücləndirilmiş işbirliyi dünyanın müxtəlif mədəniyyət icmaların içərisində sülh və ahəngdarlığın bərqərarında vacib məsələ olan mədəniyyətlər və dinlərarası dialoqunun intensivləşməsində öz yerini tuta bilər.

20. TÜRKPA beynəlxalq və parlamentlərarası təşkilatlarla əməkdaşlığını institusional çərçivədə inkişaf etdirməsində fərqindədir. Aparıcı beynəlxalq təşkilatlarla institusional əməkdaşlıq parlamentlər səviyyəsində siyasi dialoq və fikir mübadiləsinə dəstək verilməsi üçün ortaq maraqlara cavab verən prioritet məsələlərin müəyyənləşdirilməsini asanlaşdıra bilər. Birgə programların və konkret layihələrin həyata keçirilməsi TÜRKPA parlamenterlərinin müxtəlif sahələrdə qlobal siyasi qərarların verilməsi prosesi ilə yaxından tanış olmaq üçün geniş imkanlar yarada bilər.

21. Türkdilli ölkələri tərəfindən gercəkləştirilən mühüm enerji və nəqliyyat layihələri üzv ölkələrin iqtisadi inkişafına təkan verəcəkdir. Türkdilli ölkələri iqtisadiyyatlarının ilk növbədə enerji resursları və nəqliyyat infrastrukturunun inkişafında artan roluna qlobal parlamentlərarası dialoq platforması səviyyəsində müraciət olunmalıdır. TÜRKPA üzv ölkələrin iqtisadiyyatlarının strateji sektorlarda beynəlxalq təşkilatlar və onların xüsusi orqanları ilə qarşılıqlı əməkdaşlıq mövcud və yeni layihələrin icrasının sürətlənməsi potensialına malikdir.

22. Qeyd olunanları nəzərə alaraq, TÜRKPA, buna rəğmən, beynəlxalq təşkilatlarla daha da əhatəli şəkildə əməkdaşlıq etməlidir. Beynəlxalq təşkilatlarla əməkdaşlıq qarşılıqlı maraq kəsb edən istiqamətlərdə koordinasiya fəaliyyətinin artırılmasına və əsas regional məsələlər üzrə müzakirələrinə imkanlar yarada bilər.

23. TÜRKPA-nın beynəlxalq təşkilatlarla əməkdaşlığı tədbirlərində qarşılıqlı əsasda mütəmadi olaraq iştirakı ilə gücləndirilə bilər. TÜRKPA-nın aparıcı beynəlxalq təşkilatlarla əməkdaşlıq daha institusional şəkildə olacağını nəzərə alaraq, həmin əməkdaşlığın konkret mexanizm və çərçivələrin tərtib edilməsi zərurəti var.

24. TÜRKPA Katibliyi və beynəlxalq təşkilatların katiblikləri arasında aktiv əlaqələri TÜRKPA-nın effektiv beynəlxalq əməkdaşlığını tamamlayan bir amil olacaq. Bu cür aktiv əlaqələr xüsusi məsələlərə ya da ortaq maraqlara aid olan fəaliyyət üzrə məlumat və sənədləşmə mübadiləsi vasitəsiylə təmin oluna bilər. Buna uyğun olaraq, TÜRKPA əməkdaşlığın prioritet məsələlərinə dair birgə məlumat bazasının yaradılmasını müsbət qarşılayır.

25. TÜRKPA dərk edir ki, üzv ölkələri parlament və parlament nümayəndələrinin Türkdilli ölkələrinin əməkdaşlıq prosesinə tam şəkildə dəstəyin verilməsiylə bağlı iradəsi regionda sabitlik və tərəqqiyə nail olması üçün ana vasitələrindən biridir. Bu amil həm də Türkdilli ölkələr arasında inteqrasiya proseslərinə mühüm töhfə verəcəkdir.

26. TÜRKPA əmindir ki, Türkdilli ölkələrin əməkdaşlıq prosesinin bütün ölçülər arasında aktiv qarşılıqlı fəaliyyət beynəlxalq təşkilatlarla münasibətlərində birgə səylər və tədbirlərin konstruktiv şəkildə həyata keçirilməsinə yol açır. Bununla bağlı, TÜRKPA TÜRKKON və TÜRKSOY təşkilatlarla birgə təşəbbüslər və layihələrin hazırlanmasını məqsədəuyğun hesab edir.

27. TÜRKPA digər ölkələrin milli parlamentləri, o cümlədən, üzv olmayan Türkdilli ölkələri ilə qarşılıqlı əlaqələri və əməkdaşlığın inkişafını müsbət qarşılayır. TÜRKPA-da müşahidəçi statusun verilməsinə əlavə olaraq, bu cür əməkdaşlıq TÜRKPA və milli parlamentlər arasında siyasi və iqtisadi dialoqu ilə yanaşı bərabər tərəfdaşlığın möhkəmlənməsi üçün mexanizmlərin yaradılmasını ehtiva edə bilər.